Səh. 2 Dünya ilə axirət arasında – Hacı Bəkiroğlu

Səh. 5 Orada bir məzar var uzaqda – Esmira Ələkbərli

Səh. 6 Günün yazısı – Afiq Muxtaroğlu

Səh. 6 Halva-halva deməklə ağız şirin olmaz – Alina Fətullayeva

Səh. 3 Dərdi fərdi olanın hüzuru uzun çəkməz – Lamiyə Hacıyeva

Səh. 4 HAZIRDA MƏKTƏB DİREKTORLARININ SEÇİM PROSESİ APARILAN MƏKTƏBLƏRİN 81,6 %-DƏ BU PROSES FAKTİKİ OLARAQ HƏYATA KEÇİRİLMƏYƏCƏK

Səh. 7 “Koroğlu”nun əxlaqi-estetik əqidəsi – Elizbar Cavelidze

İCTİMAİ QƏZET ❁ yeniyolqazeti@gmail.com ❁ “იენი იოლი” საზოგადოებრივი გაზეთი ❁ HAQQIN SÖZÜ – SÖZÜN HAQQI

31 İYUL
2023-CÜ İL
№ 014 (185)

# Yeni YOL

Qəzet 17 iyun 2015-ci il tarixindən nəşr olunur.

## GÜRCÜSTAN DAXİLİ İŞLƏR NAZİRLİYİNİN NÜMAYƏNDƏLƏRİ TÜRKİYƏDƏ RƏSMİ SƏFƏRDƏ OLUBLAR



Gürcüstan Daxili İşlər Nazirliyinin nümayəndə heyəti Türkiyə Cümhuriyyətinin Artvin vilayətində rəsmi səfərdə olub.

Gürcüstan Daxili İşlər Nazirliyinin yaydığı məlumata əsasən, nümayəndə heyətinin tərkibində Acarıstan Muxtar Respublikasının Polis Departamentinin direktoru Qriqol Beselia, Samtsxe-Cavaxeti Polis Departamentinin direktoru Giorgi Quxraşvili, Sərhəd Polisi rəisinin birinci müavini Qoça Cancxava və Patrul Polis İdarəsinin direktor müavini Quram Davitaşvili olub.

Səfər çərçivəsində Türkiyə Daxili İşlər Nazirliyinin Artvin, Ərdahan, Rizə və Trabzon vilayətlərinin polis rəislərinin iştirakı ilə ikitərəfli görüşlər baş tutub.

Səfər Gürcüstan Daxili İşlər Nazirliyi ilə Türkiyə Daxili İşlər Nazirliyi arasında sərhəd təhlükəsizliyinin gücləndirilməsinə dair imzalanmış memorandum çərçivəsində həyata keçirilib və səfərin məqsədi sərhəd təhlükəsizliyi istiqamətində cari məsələlərin müzakirəsi, iki ölkənin sərhəd rayonlarının hüquq-mühafizə orqanları arasında əməkdaşlıq olub.

İkitərəfli görüşlər çərçivəsində tərəflər sərhədyanı rayonlar arasında hüquq-mühafizə sahəsində əməkdaşlığın əhəmiyyətinə xüsusi diqqət yetirib və gələcək perspektivləri müzakirə ediblər.

Səfərin sonunda gürcüstanlı hüquq-mühafizə orqanlarının əməkdaşları türkiyəli həmkarlarına göstərdikləri qonaqpərvərliyə görə təşəkkür edib və onları Gürcüstana dəvət ediblər.

## MARNEULİNİN LECBƏDDİN KƏNDİNİN SAKİNLƏRİ ETİRAZ AKSİYASI KEÇİRİBLƏR



Marneuli bələdiyyəsinin Lecbəddin kəndində sakinlər etiraz aksiyası keçiriblər. Yerli əhali kənd ərazisindəki daş karxanalarının fəaliyyətinə etiraz ediblər. Etirazçılar daş karxanalarının onlara məxsus otlaq sahələrini zəbt etdiyini, çayın məcrasını dəyişərək kəndi suvarma suyundan məhrum qoyduğunu bildirirlər.

Sakinlərin sözlərinə görə, hazırda kənd ərazisində doqquzuncu daş karxanasının tikilməsinə başlanılıb. Etirazla əlaqədar Marneuli şəhər şurasının Kürtlər və Qullar ərazi vahidliyi üzrə deputatı Omar İrişov ərazidə olub. O, daş karxanalarından lisenziya və fəaliyyət göstərməli olduqları sahə ilə bağlı sənədlərin tələb ediləcəyini, kəndə məxsus torpaq sahəsinin zəbt edilməsinin qarşısının alınacağını deyib.

## SALOME ZURABİŞVİLİ RUSİYA GƏMİSİNİN BATUMİ LİMANINA GƏLMƏSİNƏ ETİRAZ EDƏNLƏRİ DƏSTƏKLƏDİYİNİ BİLDİRİB



Prezident Salome Zurabişvili Batumi limanında Rusiya kruiz gəmisinin gəlişinə görə keçirilmiş etiraz aksiyasını dəstəkləyib.

Salome Zurabişvili rusiyalı turistləri daşıyan kruiz gəmisinin Batumi limanına gəlməsini təxribat adlandırıb.

“Sonuncu rus təxribatına – Putinin taxıl daşınmasını blokladığı və Qara dənizdə azad dənizçiliyi ləngitdiyi bir vaxtda Rusiya kruiz laynerinin Gürcüstanın Batumi limanını ziyarət etməsinə vətəndaşların dinc şəkildə etiraz etməsinə görə qürur duyuram. Qara dəniz Gürcüstan, Ukrayna və Avropa İttifaqı üçün həyati əhəmiyyət daşıyır”, – deyə S.Zurabişvili bildirib.

Qeyd edək ki, iyulun 27-də Rusiyaya məxsus “Astoriya Grande” kruiz gəmisi göyərtəsindəki rusiyalı turistlərlə birlikdə Batumi limanına daxil olub. Gürcüstan vətəndaşları gəminin gəlişini etiraz aksiyası ilə qarşılayıblar. Gürcüstanın Dəniz Nəqliyyatı Agentliyi kruiz gəmisinin sanksiyalardan kənar olduğunu, Batumi limanına Türkiyədən gəldiyini deyib.

Kruiz gəmisi həmin gün axşam saatlarında Batumi limanını tərk edib.

## BAŞ NAZİR ÇİN LİDERİ İLƏ STRATEJİ ƏMƏKDAŞLIĞI MÜZAKİRƏ EDİB



Gürcüstanın Baş naziri İrakli Qaribaşvili Çenqduda Çin sədri Si Cinpinlə görüşüb.

Məlumatı Gürcüstanın Baş nazirinin mətbuat xidməti yayıb. Bildirilib ki, görüşdə Gürcüstan və Çin Xalq Respublikası arasında ikitərəfli əməkdaşlığın daha da dərinləşdirilməsi qərarı qəbul edilib.

İrakli Qaribaşvili qeyd edib ki, Gürcüstan Çinlə uzunmüddətli dostluq və əməkdaşlıq əlaqələrini yüksək qiymətləndirir.

Baş nazir həmçinin Si Cinpinə “Bir kəmər, bir yol” qlobal təşəbbüsünə görə təşəkkür edib.

Məlumatda qeyd olunub ki, Si Cinpin Gürcüstan və Çin ikitərəfli münasibətlərini yeni səviyyəyə qaldıracaq strateji tərəfdaşlıq əlaqələrinin qurulduğunu deyib.

Si Cinpin əlavə edib ki, beynəlxalq aləmdə hadisələrin necə inkişaf etməsindən asılı olmayaraq Çinin Gürcüstanla əlaqələrinin inkişafına münasibəti dəyişməyəcək. O, Tbilisi ilə Pekin arasında strateji tərəfdaşlığın qurulmasının ikitərəfli münasibətləri yeni səviyyəyə qaldıracağını vurğulayıb.



# DÜNYA İLƏ AXİRƏT ARASINDA

Hacı Bəkiroğlu
hacihaciyev@hotmail.com

Zaman çox sürətlə keçib gedir. Dəqiqəni saatlar, saatları günlər, günləri aylar, illər əvəz edərkən mövsümlər də bir-birini əvəz edir. Bu qaçhaqaç bəzən o qədər sürətli olur ki, necə keçdiyini belə dərk etməkdə insan çətinlik çəkir.

Keçici olan həyatı əbədiləşdirmək uğrunda yaşayırıq sanki yer üzündə. Ölümü unudaraq, çox vaxt da xatırlamaq belə istəmədən dalırıq dünya istəklərinə. Bitib-tükənməz işlərimizi yoluna qoymaqdan başqa düşüncəmiz də yoxdur. Yox, uşaqlar böyüyür, onlara ev alaq; yox, uşaqlar evlənəcək, onlara gözəl həyat verək; yox, maşın köhnəldi, yenisini alaq; ev təmir olunasıdır deyərkən bir də baxırsan ki aradan illər keçib, saç ağarıb, üz qırışıb... Bu dünya işlərindən zaman tapmırıq ki, bir düşünək, görək sabah öldüyümüzdə sonumuz nə olacaq? Bizi yaradan Allah bizdən nə istəyir? Axirətimiz üçün hansı yatırımları edirik? İbadət etmək ağlımızdan belə keçmir. Sadəcə bir düşüncəmiz olur ki, bu işimi də həll edim, ibadətə başlayaram. Ancaq düşünmürük ki, ölümün saatı yoxdur. Əzrayıl hər an, hər yerdə yaxamızdan tutub apara bilər.

İnsan hər zaman bu dünya üçün çalışdığı kimi axirəti üçün də sərmayə yığmalıdır. Heç kim demir ki, bu dünyadan əl üzüb sadəcə axirət üçün çalış. Həzrət Peyğəmbər bir hədisi-şərifində buyurur: "Sizin xeyirliniz dünyası üçün axirətini, axirəti üçün də dünyasını tərk etməyəndir" (Kənzu-Ummal, III/238, h.n: 6336). Başqa hədisdə isə "dünya axirətin tarlasıdır" buyurulur. Sözün sahibinin kim olduğunu bilmirəm, ancaq gözəl və mənalı bir deyim də var, buyurulur ki: "Heç ölməyəcəkmiş kimi bu dünya üçün, hər an öləcəkmiş kimi axirət üçün çalış". Ancaq bu ikisinin arasında orta yolu tapmaq böyük məharət istəyir. Qeyd olunan hədislərdə və hikmətli sözdə istər dünya, istərsə də axirət üçün görüləcək işlərə ciddi yanaşmağın lazımlılığına işarə olunur. Sabah öləcəyini düşünən insan bütün dünya işlərini tərk edib, səmimi və ciddi şəkildə axirətə üz tutur. Əsla ölməyəcəyini düşünən insan isə gələcəkdə də görəcəyi işlərin sonsuz illər ərzində ona xeyirli olması üçün görəcəyi işin sağlam, davamlı və gözəl olmasının lazım olduğunu düşünür. Bu baxımdan bu hədislər həm dünya, həm də axirət işlərini ehtiyatla görməyin vacibliyinə diqqət çəkir. Onu da qeyd edək ki, buradan da anlaşıldığı kimi, islam dini insanı dünyadan uzaqlaşdırıb sadəcə axirəti düşünməyə imkan vermir. İslam dini orta yollu olmağı hədəfləyir. Dinin məqsədi dünyada qazandığı nemətlərin, var-dövlətin Allah tərəfindən ona verildiyini xatırlatmaqdır. Digər tərəfdən də sadəcə dünyalığı düşünən insan nəfsinin əsiri olaraq xəsisliyə tutulur. Axirət düşüncəsi olan insan isə bu sərmayəsini digər ehtiyacı olan insanlarla bölüşərək axirətinə də yatırım etmiş olur.

Yalnız dünyanı və dünyalığı düşünən insan əbədi olanı seçmək istəyir, əbədi qalana yatırım etməyi arzulayır. Ancaq düşünmək lazımdır ki, nə etsən də bu dünyadakı həyat bir gün sona çatacaq, uğrunda hər şeyini verdiyin mülkün bir müddət sonra başqalarının qisməti olacaq. Ancaq əbədi olanın isə Quran və hədislərdən də öyrəndiyimiz kimi, axirət həyatı olduğunu xatırlamalıyıq. Bunu xatırladığımız müddətdə də o əbədi olana sərmayə toplamağa çalışacağıq. Çünki bu əbədiyyət ya cənnət bağçalarından bir bağça, ya da cəhənnəm çuxurlarından bir çuxur olacaq. Həm dünya, həm də axirət üçün çalışmaq istəyiriksə o zaman həm halal yollarla qazanmağa, həm də qazandığımızın Allahın bir neməti olduğunu düşünərəkdən müəyyən bir hissəsindən kasıblara, ehtiyacı olanlara da verməliyik. Bunu etdiyimiz təqdirdə əbədi həyatdakı yerimizin cənnət bağçası olacağını Allah bizə vəd edir. Ancaq bu etdiklərimizi də Allahın razılığını qazanmaq niyyəti ilə etmək şərti ilə. Yoxsa, filankəsin nə comərd adam olduğunu görsünlər deyə edəriksə o zaman cənnət bağçasını cəhənnəm çuxuruna çevirmiş olarıq.

Dünyada gördüyümüz işləri axirət sərmayəsinə dönüşdürə bilmək ümidi ilə...

## GÜRCÜSTANDA BU İLİN 5 AYI ƏRZİNDƏ 75 HALDA YETKİNLİK YAŞINA ÇATMAYANLAR CİNSİ ZORAKILIĞA MƏRUZ QALIB



Cinayət statistikası üzrə rəsmi hesabata əsasən, 2023-cü ilin ilk 5 ayı ərzində Gürcüstanda 75 halda yetkinlik yaşına çatmayanlar cinsi zorakılığın qurbanı kimi tanınıb.

Bundan əlavə, 2023-cü ilin ilk 5 ayı ərzində 633 azyaşlıya zərərçəkmiş statusu verilib – yeniyetmələr daha çox məişət zorakılığına məruz qalıblar. Ümumilikdə məişət zorakılığı ilə bağlı 269 fakt üzrə cinayət işi başlanıb.

Yanvar ayı üzrə statistik məlumatlara görə, 7 fakt 16 yaşına çatmayan şəxslə birbaşa cinsi əlaqə və ya cinsi xarakterli digər hərəkətlər, 4 cinsi zorakılıq, 2 zorlama və 1 nalayiq hərəkət olub.

Fevralda 16 halda azyaşlılar zərərçəkmiş kimi tanınıb.

Mart ayında 16 halda yetkinlik yaşına çatmayanlar cinsi toxunulmazlığa qarşı cinayətlərin qurbanı kimi tanınıblar.

Aprel ayında 17 halda azyaşlılar zərərçəkmiş kimi tanınıblar.

May ayında yaşı 16-dan az olan şəxslə cinsi əlaqədə olma və ya cinsi xarakterli digər hərəkətlər etmə ilə bağlı 5 fakt qeydə alınıb.

Azyaşlıya qarşı son səs-küylü zorakılıq hadisəsi Batumidə baş verib. Batumi Şəhər Məhkəməsi öz 13 yaşlı uşağına təcavüz etməkdə təqsirləndirilən şəxsə həbs cəzası verib.

İyulun 12-də 40 yaşlarında olan şəxs saxlanılıb. O, Cinayət Məcəlləsinin 137-ci maddəsinin (qabaqcadan əlbir olaraq azyaşlı ailə üzvünü zorlama) 15 ildən 20 ilədək azadlıqdan məhrum etməni nəzərdə tutan bəndləri ilə ittiham olunub.

*Mənbə: jam-news.net*

## METYU MİLLER: ABŞ SAAKAŞVİLİNİN VƏZİYYƏTİNİ YAXINDAN MONİTORİNQ EDİR



ABŞ Gürcüstanın sabiq Prezidenti Mixeil Saakaşvilinin vəziyyətini yaxından monitorinq edir. Bunu ABŞ Dövlət Departamentinin mətbuat katibi Metyu Miller keçirdiyi brifinqdə deyib.

O, ABŞ-ın Saakaşvilinin sağlamlıq vəziyyətinə görə çox narahat olduğunu əlavə edib.

"Biz həm ictimai qaydada, həm də ayrılıqda Gürcüstan hökumətinə bir neçə dəfə demişik ki, Saakaşvilinin ehtiyac duyduğu tibbi qayğı ilə təmin edilməsi və insan haqlarına hörmət edilməsinin təmin edilməsi hökumətin məsuliyyətidir. Biz bu məsələni yaxından izləməyə davam edəcəyik", – Miller deyib.

## BU İL GÜRCÜSTANIN ƏSAS YANACAQ TƏDARÜKÇÜSÜ RUSİYA OLUB




Cari ilin yanvar-iyun ayları ərzində Gürcüstan Rusiyadan 449,5 min ton benzin və dizel yanacağı idxal edib. Bu barədə Gürcüstanın Neft Məhsulları İdxalçıları Birliyinin paylaşdığı statistikada bildirilib.

Qeyd olunub ki, bu, Gürcüstanın hesabat dövründə idxal etdiyi ümumi benzin və dizel yanacağının 81,1 %-ni təşkil edib. Gürcüstanın ən çox yanacaq idxal etdiyi ikinci və üçüncü ölkələr isə Rumıniya (77,6 min ton və ya 14 %) və Türkmənistan (11,4 min ton və ya 2 %) olub.

Bu ilin ilk altı ayı ərzində Gürcüstan Azərbaycandan 9,5 min ton yanacaq idxal edib ki, bu da ölkənin ümumi idxalının 1,7 %-nə bərabər olub.

Qeyd edək ki, Gürcüstan Avro-5 yanacaq standartına keçidlə əlaqədar bu ilin əvvəlindən Azərbaycandan dizel idxalını dayandırıb.

Bu ilin ilk altı ayı ərzində Gürcüstan ümumilikdə 554,2 min ton yanacaq idxal edib. Bu, illik müqayisədə 32,5 min ton və ya 6,2 % çoxdur.

# HALVA-HALVA DEMƏKLƏ AĞIZ ŞİRİN OLMAZ



Hər birimiz həyatda nəyəsə nail olmaq və hər şeyin ən gözəlinə sahib olmaq üçün bəzi şeyləri qurban verərək məqsədimizə çatmağa, arzularımızı həyata keçirməyə çalışırıq. Bəzilərimiz isə heç bir şey etmədən sadəcə xəyallar qurmaqla kifayətlənirik və vaxtımızı boşa keçiririk. Xəyallar isə təkbaşına heç nə ifadə etmir. Bunun nəticəsində heç nəyə nail ola bilmirik. Əgər çalışmasaq, boş-boş oturub nəyinsə həyata keçməyini xəyal etsək, gerçəkləşməsi üçün can atmasaq, onda bunun nə önəmi var.

Bax elə indi atalar sözünün tam yeridir: "Halva-halva deməklə ağız şirin olmaz". Yəni boş-boş oturmaqla heç nə əldə edə bilməyəcəyik, səy göstərmək lazımdır. Gözəl sözlərlə, xoş arzularla xəyallar qurmaqla reallaşmır. Həyata keçirmək lazımdır. Yəni necə o xəyalları qururuqsa onları reallaşdırmağı da bacarmalıyıq. Hərəkətə keçməliyik. Bizim üçün əsl xoşbəxtlik xəyallarla yaşamaq deyil, onları həyata keçirməkdir. Əlbəttə ki, doğru addımlarla. Əks halda arzular, gözəl sözlər deyildiyi kimi qalacaq.

Universitet imtahanları keçirildi artıq. Bəzilərimiz üçün bu, yeni bir başlanğıc üçün bir addım idi. Çox həyəcanlı günlər idi. Bəzilərimiz bir-iki dərman içib stresimizi azaltmağa çalışırdıq. Fikirləşirdik, "görəsən, bu il suallar asanmı olacaq?" Biz bir-birimizə bu cür sual verərkən bəziləri "necə köçürə bilərəm?", "görəsən, kiminlə eyni qrupa düşmüşəm?" deyə fikirləşirdilər. Bir sözlə, bütün ili oturub ancaq imtahan vaxtı kimdən köçürəcəklərini düşünürdülər. Elə hesab edirdilər ki, məktəbdə köçürdükləri kimi imtahanda da bunu edə biləcəklər.

İmtahanın vaxtı gəldi və sıra ilə içəri girdik. Hər kəs öz yerini axtarırdı. Yavaş-yavaş hərə öz yerinə keçirdi. Bizim qrupda hələ 4-5 nəfər var idi. Birdən yaşı 28-dən çox olan bir nəfər gəldi. Mən elə bildim ki, müəllimdi, nəzarət edəcək. Ancaq o da sənədlərini verib yerinə əyləşdi. Məndə bir az qəribə hiss yarandı və sonra öz-özümə dedim, demək ki, oxumağın yaşı yoxdur, yəqin təzədən gəlib ağlına oxumaq. Hər kəs imtahanı verdi və bayıra çıxdı. İmtahan gözlədiyimizdən daha rahat keçdi. Bayırda gözləyən yaxınlarımıza imtahanın necə keçdiyini danışdıq...

Evə qayıdarkən sinif yoldaşım "o arxada əyləşən riyaziyyat müəllimi idi" dedi. İmtahandan yeni çıxmışdıq deyə heç ağlıma belə gəlmədi ki, müəllimlər məzunlarla eyni imtahanı vermirlər, müəllimlərin imtahanı başqa olur. Nə isə, bu müəllimin hansı və nə məqsədlə bu imtahana girdiyini əvvəlcə başa düşə bilmədik. Sonradan bildik ki, onlar universiteti çoxdan bitiriblər, ixtisasları da riyyaziyyat. Bu imtahanda isə bəzi məzunlara kömək edirdilər. Bu, haqsızlıq deyilmi? Axı biz aylarla, illərlə bu imtahan üçün hazırlaşmışıq. Bu cür haqsızlığı nə üçün edirlər. Belə etməklə yaxşılıq etdiklərini düşünürlər, amma ən böyük səhvi elə onlar edirlər. Gələcəkdə müəllim olmaq istəyənlər onlardan necə ibrət götürsünlər. Uşaqları gələcəkdə kimdənsə asılı olmağa meyilli edirlər. Ən əsası da gecə-gündüz bu imtahan üçün çalışanların haqqına girirlər. Mən bir sualıma yenə cavab tapa bilmirəm. Axı o sənədlər verilərkən və yaxud imtahan üçün qeydiyyatdan keçərkən onun müəllim olduğu bilinmirmi? Bu cür haqsızlığa necə icazə verilir?

*Validə Fətullayeva*
*Qardabani 3 saylı ictimai məktəbin məzunu*

# DƏRDİ FƏRDİ OLANIN HÜZURU UZUN ÇƏKMƏZ

Neçə illərdir ki, gözəl yurdumun bölgələrini gəzib insanlarla görüşürük, onların ziyarətlərində oluruq. Bəzən böyük, bəzən kiçik məclislər, mərasimlər, şad günlər, yarışmalar və s. vasitəsi ilə onlarla bir araya gəlirik. Ümumiyyətlə, görüşlərimiz gözəl insanlarımıza, qadınlarımıza və qızlarımıza haqqı, ədaləti tanıtmaq, onları ilahi razılığı qazanmağa dəvət etmək, Yaradanın yaratdığındakı qayəsini təbliğ etmək, insanlarımızı gözəlliyə, səmimiyyətə dəvət etmək, dünyanın fani ləzzətində sovrulmadan həqiqəti idrak edə bilmələri üçün vasitəçi olmaq məqsədi daşımaqdadır.

Bu görüşlər zamanı qət etdiyimiz məsafələr, keçdiyimiz yollar, kənd mərkəzlərində toplaşaraq vaxtlarını keçirən insanlar, yollarda xeyir və ya şər mərasimlərinə tələsərək gedənlər, həyətlərinin önündən keçdiyimiz hər qapıdan eşitdiyimiz fərqli sözlər, cümlələr bizlərə zəmanəmizlə bağlı bir çox şeyi xəbər verir. Keçdiyimiz küçələrdə gördüyümüz hər qapının arxasında fəqli hekayələr var. Və bu hekayələr bizə yad olsa da, biz bu hekayələrin içərisində olmasaq da çatdığımız məkanda görüşlərimizdə bir çox hekayə gəlir bizim qarşımıza və bəzən səmimi bir söhbət əsnasında daxil oluruq hekayələrə. Hekayə dediyimə baxmayın, həqiqi yaşanan həyat hekayələrindən bəhs edirəm. Bəzən görüşlər kiçik və mütəvazi olduğunda insanlarla tanış olmaq, onların həyat hekayələrini dinləmək fürsətimiz olur. Daha sonra görüşə bilmək üçün əlaqələr qurulur və geri qayıdıb gəldiyimizdə özümüzlə o insanların hekayələrini də gətiririk bərabərimizdə. Onu da deyim ki, özümüzə yoldaş etdiyimiz hekayələr çox vaxt kədərli, dərdli, qüssəli olur. Nadir halda insanlar sevinclərini bölüşürlər bizlərlə. Daha çox dərd ortağı axtarır insanımız. Qınamadan, danlamadan, sirrini ifşa etmədən səmimi şəkildə dinləyən birini axtarır insanımız.

Qayıdıb gəldiyimizdə başqa yerlərdə başqa hekayələrlə qarşılaşdığımızda danışılan hekayələr cəmləşir bir bədəndə, bir qəlbdə və bölgələrimizdəki insanımızın səbrini, şükrünü görürük hekayələrdə. Birinin qarışqasının fil olduğunu, birinin filinin qarışqa olduğu görürük. Görüşlərdə qarşımıza gələn gözəl insanlarımızın qəlbi fərqli yüklü duyğulardan bəslənir, hər gözdə bir məna, hər baxışda bir hiss gizlidir, bəzən çox keçmədən üzə vurur gizlənən duyğuları, dildən sirri ifşa edən cümlələr tökülür. O zaman anlayırsan necə də doğru bir addım atdığını, necə də gözəl, ülvi bir məsləklə orada olduğunu. O zaman insanların dərdləri ilə dərlənirsən. O zaman yaş üstə yaş gəlmişcəsinə böyüyürsən. O zaman həyata baxışın formalaşır və o zaman anlayırsan insanlar arasında əskik olan duyğuları və qərar verirsən yaşanmış bu gerçəkləri misralara, sətirlərə sığışdırmağa. O zaman həyata baxışın dəyişir, başqalarının dərd etdikləri şeylər sənə sıradan gəlir, həyatda dəyər verdiyin şeylər dəyişir, formalaşır və sən sən olmağa başlayırsan həqiqi mənada. Bunu ancaq yaşayaraq bacarmaq olar, masa arxasında oturaraq, kitablar yazaraq, dəftərlər qaralayaraq bu gerçəkləşmir. Bu ancaq insanlarla səmimi olduğun vaxt yaşanan və qazanılan gözəl bir nemətdir.

Və keçən bu illər, qət edilən məsafələr təcrübə olaraq bizlərə dönür və bu dəfə də həyata olan ümidlərin fərdi olmaqdan çıxır, anlayırsan ki, dərdi fərdi olanın hüzuru uzun çəkməz. İstisnalar qaydanı pozmur, hüzursuz bir dünyada hüzur içində yaşayanlar da var. Başqaları hüzursuz olarkən hüzur içində yaşamaq insanın özünə xas şəxsiyyət məsələsidir. Hüzurun var olması və qalıcı olması üçün əlindən gələn səyi göstərməyə başlayırsan və bir çoxları tərəfindən anlaşılmasan da, bəlkə, qınansan da həyatda "öz kiçik dünyam var"dan çıxıb bütün dünyanı qucaqlamaq istəyirsən.

Ümid edirəm ki, illər keçdikcə insanlarımızın özlərinə həmsöhbət olaraq, dərd ortağı olaraq kənardan məsafələr qət etmiş birini gözləmələrinə ehtiyac olmayacaq və hər kəs bir-birini qınamadan, sirrini ifşa etmədən səmimi bir şəkildə dinləməyi bacaracaqlar. Bu şəxsimdə bəslədiyim bir duyğudur, bəsləyib, böyüdüb meyvəsini görmək də insan olaraq mənim ən təbii haqqımdır deyə düşünürəm. Bu meyvə bir çox dərdlərə məlhəm olacaqdır Allahın izni ilə...

*Lamiyə Hacıyeva*
*Bütün Gürcüstan Müsəlmanları İdarəsinin Şərqi Gürcüstan Müftiliyinin Qadınlar Şurasının sədri*

# HAZIRDA MƏKTƏB DİREKTORLARININ SEÇİM PROSESİ APARILAN MƏKTƏBLƏRİN 81,6 %-DƏ BU PROSES FAKTİKİ OLARAQ HƏYATA KEÇİRİLMƏYƏCƏK




Vətəndaş İnteqrasiyası və Millətlərarası Əlaqələr Mərkəzi 2023-cü ilin direktorların seçim müsabiqəsi haqqında hazırlanmış hesabatda yazır ki, hazırda aparılan məktəb direktoru seçkiləri prosesi ictimai məktəblərin 81,6 %-də faktiki olaraq həyata keçirilməyəcək, yalnız 382 ictimai məktəbdə direktor seçmək üçün real müsabiqə keçirilir.

17 iyulda yayımlanmış "Gürcüstanın ictimai məktəblərində dirketorluğa namizədlər – 2023" bülletenindən bir çox məlumatlar öyrənmək mümkündür.

Sənədə əsasən, məktəb direktorlarının seçimi üçün məktəblərin ümumi sayının yalnız 18,4 %-də real müsabiqə aparılır.

***"Şəhərin 478 məktəbindən 45 ictimai məktəbdə direktorluğa namizəd yoxdur. Şəhərin 210 məktəbində yalnız 1 namizəd var, yəni şəhər məktəblərinin 53 %-də rəqabət yoxdur. Kənd, icma və qəsəbənin 1595 məktəbindən 735 məktəbdə direktorluğa namizəd qeydiyyatdan keçməyib. Kənd, icma və qəsəbə dövlət məktəblərinin ümumi sayının tam 10 %-də (1595 dövlət məktəbindən 159 məktəbdə) müsabiqə əsasında məktəb direktoru seçmək üçün real imkan olacaq. Bir müddət direktor səlahiyyətlərinin icraçısı olaraq işləmiş şəxs olan məktəblərdə rəqabət azdır. Güman ki, rəqabətin aşağı olmasına onların indi ikinci müddətə seçilmək imkanlarının olması səbəb olub. Görünür, belə məktəblərdə yeni namizədlər az rəqabətə girirlər"*** – Vətəndaş İnteqrasiyası və Millətlərarası Əlaqələr Mərkəzinin bülletenində yazılıb.

Təşkilat hesabatında ictimai məktəb direktoru olmaq istəyənlərin sertifikatlaşdırılması üçün aparılan proses haqqında mövcud olan göstəriciləri qeyd edib və bildirib ki, bugünkü göstəricilərlə müsabiqədə 1409 sertifikatlaşdırılmış namizəd iştirak edir. Məktəb direktoru seçiləcək məktəblərin sayı isə 2074-dür.

Müəyyən edilmiş prosedurlara əsasən məktəb direktorluğuna sertifikatlı namizədin müsabiqə ilə müəyyən edilmiş hüququ var. O, direktor olmaq üçün ən azı üç məktəbi seçə bilər. Məktəblər namizəd tərəfindən seçilir. Məktəb direktorluğuna namizəd seçdiyi məktəbləri seçim prioritetlərinə əsasən (birinci, ikinci və üçüncü prioritet) qeyd edir. Bu prosesin analizi əsasında hesabatın müəllifləri nəticəyə gəliblər ki, rəqabət tam istisnadır. Bununla məktəb direktorlarının seçim prosesinin nə dərəcədə real olduğu sual altında qalır.

***"Hər üç prioritetli seçimin nəticələrini yekunlaşdırsaq məlum olar ki, 2074 məktəbdən 798 məktəbdə direktorluğa heç bir sertifikatlaşdırılmış namizəd qeydiyyatdan keçməyib (yəni məktəblərin 38,5 %-nin sertifikatlı direktoru olmayacaq). 894 məktəbdə yalnız bir namizəd (məktəblərin ümumi sayının 43,1 %-i) qeydiyyatdan keçib. Bu rəqabəti, seçkilərin mümkün olmasını istisna edir. Bu göstəricidən irəli gələrək, ictimai məktəblərin 81,6 %-də məktəb direktoru seçkiləri prosesi faktiki olaraq həyata keçirilməyəcək və yalnız 382 məktəbdə məktəb direktorlarının seçilməsi üçün real müsabiqə aparılır"*** – bülletendə yazılıb.

Sertifikatlaşdırma çərçivəsində məktəb direktoru olmaq istəyənlərlə müsahibənin birinci hissəsi artıq baş tutub. 24 iyuldan isə məktəb direktoru olmaq istəyənlərlə müsahibələrə Acarada başlanılmalıdır. Artıq keçirilmiş müsahibələr nəticəsində 27 namizəd komissiyanın təkzib etmək qərarı ilə razılaşmır və məsələni məhkəmədə davam etdirirlər.

# GÜRCÜ DİLİ ÜZRƏ HAZIRLIQ PROQRAMI LƏĞV OLUNACAQ



"Ali təhsil haqqında" qanunda dəyişiklik edilib. Dəyişikliyə əsasən, abituriyentlərin gürcü dili üzrə hazırlıq təhsil proqramına qəbulu 2030-2031-ci tədris ilindən sonra ləğv olunacaq.

"Ali təhsil haqqında" Gürcüstan qanunu ilə müəyyən edilmiş 52-ci maddənin $1^2$ bəndi ilə nəzərdə tutulmuş testlərin nəticələri əsasında abituriyentlərin ali təhsil müəssisəsində gürcü dili üzrə hazırlıq proqramına qəbulu müvəqqəti tədbirdir və 2030-2031-ci tədris ili də daxil olmaqla qüvvədədir.

Gürcüstan vətəndaşı olan və ya "Gürcüstan vətəndaşları və Gürcüstanda yaşayan xaricilərin qeydiyyatının, şəxsiyyət (müvəqqəti yaşamaq) vəsiqəsinin, Gürcüstan vətəndaşı pasportunun verilmə qaydası haqqında" Gürcüstan qanununun $20^{13}$ maddəsi ilə nəzərdə tutulmuş şəxs olan abituriyentin gürcü dili üzrə hazırlıq proqramında təhsilə davam etmək hüququ var. Həmin şəxs nazirlik tərəfindən tətbiq edilmiş qaydada vahid milli imtahanlarda qeyd olunan testlərdən birini vermiş olmalıdır:

a) Azərbaycan dilində ümumi qabiliyyət imtahanı;

b) Erməni dilində ümumi qabiliyyət imtahanı;

c) Osetin dili imtahanı;

ç) Abxaz dili imtahanı.

# ATTESTATI NECƏ VƏ HARADA ALMAQ OLAR?




Gələcək tələbələr universitetlərə qeydiyyatdan keçmək üçün digər sənədlərlə birgə attestatı da təqdim etməlidirlər. Ümumi təhsili təsdiq edən dövlət sənədini – attestatı almaq üçün Ədliyyə Evinin istənilən filialına və ya Dövlət Xidmətinin İnkişafı Agentliyinin istənilən ərazi xidmətinə müraciət etmək olar.

**Ümumi təhsili təsdiq edən sənədi almaq üçün səlahiyyətli xidmətə aşağıdakı sənədləri təqdim etmək lazımdır:**

- Şəxsiyyəti təsdiq edən vəsiqə;
- Doğum şəhadətnaməsi (Ümumi təhsili təsdiq edən dövlət sənədini/attestatı almaq üçün yetkinlik yaşına çatmamış şəxsin qanuni nümayəndəsi müraciət edərsə);
- Müvafiq qaydada təsdiqlənmiş etibarnamə (Ümumi təhsili təsdiq edən dövlət sənədini/attestatı almaq üçün maraqlanan şəxsin nümayəndəsi müraciət edərsə);
- Sənədin tezləşdirilmiş qaydada verilməsi halında – tezləşdirilmiş xidmət üçün ödənişi təsdiq edən qəbz.

**2023-cü il 20 iyun tarixindən sonra attestatın tezləşdirilmiş qaydada verilməsi halında xidmət üçün vaxt və qiymətlər bu cürdür:**

- Ərizə verildikdən 10-cu iş günü – pulsuz;
- Ərizə verildikdən 5-ci iş günü, tezləşdirilmiş xidmətin qiyməti – 25 lari;
- Ərizə verildikdən 3-cü iş günü, tezləşdirilmiş xidmətin qiyməti – 40 lari;
- Ərizə verildikdən 2-ci iş günü, tezləşdirilmiş xidmətin qiyməti – 55 lari;
- Ərizə verilən gün, tezləşdirilmiş xidmətin qiyməti – 65 lari.

**Qeyd edək ki, əgər maraqlanan şəxs tədris ilinin sonuna qədər ümumi təhsili təsdiq edən sənədi/attestatı almaq üçün səlahiyyətli xidmətə müraciət etməzsə, ona növbəti ildə ümumi təhsili təsdiq edən dövlət sənədinin dublikatı veriləcək.**

# NAEC 2023-CÜ İLİN İMTAHANLARI HAQQINDA MƏLUMAT YAYIB




Qiymətləndirmə və İmtahanlar üzrə Milli Mərkəz 2023-cü ilin imtahanlarının ümumi statistikasını yayımlayıb.

Qeydiyyatdan keçmiş 45 000-dən artıq abituriyentdən 94 %-ə yaxını imtahanda iştirak edib.

Müəllim və müəllim olmaq istəyənlər üçün fənn imtahanına qeydiyyatdan keçmiş 18 500-ə yaxın aplikantın 82 %-dən çoxu imtahanda iştirak edib. Tələbələrin qrant müsabiqəsinə qeydiyyatdan keçmiş 3000-dən artıq tələbədən isə 75 %-dən çoxu imtahanda iştirak edib.

2023-cü ildə bütün Gürcüstan miqyasında ümumilikdə 24 imtahan mərkəzi fəaliyyət göstərib.

İmtahanların nəticələri mərhələli şəkildə yayımlanacaq və bundan sonra aplikantlar öz nəticələrini şikayət edə biləcəklər.

Abituriyentlər nəzərə almalıdılar ki, apelyasiyanın nəticələrinin yayımlanmasının növbəti günü də daxil olmaqla, istəyə uyğun olaraq, təhsil proqramlarını dəyişə bilərlər.

Qeyd edək ki, 2023-cü ilin imtahanları iyulun 3-də başlayıb, iyulun 28-də ümumi magistratura imtahanı ilə başa çatıb.

Səhifədəki məlumatlar "etaloni.ge" və "edu.aris.ge" saytlarından götürülüb.
Gürcü dilindən tərcümə etdi: **Aynurə ƏLİYEVA**

# ORADA BİR MƏZAR VAR UZAQDA



1937-nin qara yelləri qapı-qapı, el-el gəzərkən, neçə-neçə işıqları söndürərkən qədim Borçalıda, yeni yaradılan Lüksemburq (Bolnisi – 1930) rayonunun Darbaz kəndində bir işıq yandı. Namaz kişinin ocağında göz açan oğlana Mədəd adı verdilər.

Hələ çətin dövr idi. Doğmalarından başqa kimsənin fərqində olmadığı bu gəliş illər sonra öz işığıyla neçə qaranlıqlara şəfəq saçacaqdı, neçə körpülər salacaqdı. Hələ 1937-ci il idi. O illərin qaranlığıyla böyüdü. Uşaqlığın dadını dadmadan cəfalar çəkdi, müharibə ona nə ata, nə əmilər, nə də dayılar əhatəsini qismət etdi. Kəndə gələn qara kağızlar boynubükük uşaqların sevincə, sevgiyə həsrət çöhrələrində lövbər salırdı. O dövrdə uşaqlıq yaşamayan, "şərikli çörəklə" böyüyən uşaqların dərdi də şərik idi.

Nəhayət dünya müharibəsinin sonu xəbəri hər yana çatdı. Borçalı qəzasının Darbaz kəndində məktəb 1919-cu ildən fəaliyyətdə idi. Balaca, sakit, öz dünyası olan şagird dərslərində fərqlənsə də, yenə də kimsənin nəzərində fərqli deyildi. Onda bütün uşaqlar bir böyüyüb, bir kiçilmişdilər, axı onlar şəxsiyyətə pərəstişin qapısından keçib, faşizmin qandalından çıxan uşaqlar idilər, poladdan bərk idilər. Sanki zamandan qisas almaq istəyi balaca Mədəd üçün bütün gücünü dərslərə yönəltdi. Ailəsinə dəstəyindən ayırdığı zamanla oxudu, oxudu, oxudu...

O vaxt əksər məzunlar sənədlərini Qazağa versə də, gənc Mədəd Tbilisiyə üz tutdu. Axı onun amalı vardı, qəlbindəki arzuların kökü dərin idi, açıb-ağartmasa da. Və Tbilisi Pedaqoji İnstitutunun Tarix-filologiya fakültəsinin Azərbaycan bölməsinə qəbul olundu. Bu yol o yol idi, başlanğıc idi. Fərqli addımla gəldi, fərqli planlarla məzun olduqdan sonra hərbi xidmətdə də zabit məktəbini bitirdi, rütbəylə geri döndü. Əvvəl öz oxuduğu məktəbdə müəllim işlədi, az sonra Bolnisi rayon komsomol komitəsində, sonra rayon partiya komitəsində işləsə də amalından dönmədi, pillə-pillə sürətli yüksəlmə onu içindəki məqsədə doğru aparan istəkdən vaz keçirə bilmədi. Axı məqsədi vardı, arzuları hələ gizlincə, sakitcə közərirdi qəlbində.

Rəsmi işiylə paralel Azərbaycan EA-nın Nəsimi adına Dilçilik İnstitutunda qiyabi aspiranturada oxudu və Daşkənddə müdafiə etdi: "Bolnisi rayon şivələrinin leksikası". Bu mövzu özü onu aparırdı istədiyi istiqamətə. Müdafiədən sonra onu instituta işə dəvət etdilər. Bəli, bu, raykomluqdan müəllimliyə eniş idi, amma içində olan "söküntünü qura bilməsəm də yazılarımla yaşatmalıyam" düşünürdü.

Çörük Qəmərli (Bolnisi) artıq tarix olmuşdu. Davamı olmalı idi. 1973-cü ildən müəllim kimi başladığı işində professor adına qədər ucaldı. İlk dəfə olaraq gürcü və Azərbaycan xalqları dostluğunun tarixini araşdırdı, yenə də ilk dəfə olaraq Azərbaycan və gürcü dilində danışıq lüğətini hazırladı. Hər iki dövlətin mədəni əlaqələri haqqında bir çox qəzet və jurnallarda gürcü dilində məqalələr dərc etdirdi. Dramaturgiyada, poeziyada, filmlərdə bu ardıcıllıqla pillə pillə ucaldı.

Professor Mədəd Çobanov 1994-cü ilə qədər Tbilisi Pedaqoji İnstitutunda fəaliyyətini davam etdirdi. Onun titullarını təkrarlamıram, çünki kifayət qədər məlumat var. Yazdıqlarım hörmətli müəllimin Gürcüstandakı fəaliyyətidir.

Özünü təqdim etmək üçün bura ona darlıq etdi və keçid dövrünün məlum çətinlikləri onu "könlünün məskəninə" apardı. Bakıda müxtəlif vəzifələrdə işlədi – kafedra müdiri, prorektor, rektor... yüzlərlə tələbə yetişdirdi, amma müqəddəs amalından qalmadı.

1997-ci il idi. Mən tələbə idim. "Ruskoyazıçnı" qohumlarımdan biri hərbi məktəbə daxil olmuşdu. Ana dilində "əyri-üyrü" danışan bunlara mən həmişə tənə edirdim ki, siz nə özünüzsünüz, nə də oxşamaq istədiyiniz. İndi o bizə evə zəng etmişdir ki, ona ana dilində məruzə etməyə kömək edəm (diksiyadan yəni, onda indiki kimi özəl kurslar yox idi). Məni həmişə "naçionalistka" adlandıran kəsin ana dilimizə işi düşməyi məni sevindirdi. Sevincimi istehza kimi anlayan həmyaşıdım dedi ki, bir müəllim var, səni kimi o qədər ana dilindən danışır ki, ay nə bilim zabit dilimizi belə bilməli, millət belə, xalq elə, elə bil ədəbiyyat fakültəsidir; biz hərbçi olacağıq e, şeir deməyəcəyik, natiqlik mənim nəyimə gərək?..

Dedim yaxşı sərkərdə əmrlə yox, yerində danışmaqla əsgəri qələbəyə aparar. Güldü ki, elə o da belə deyir. Kimliyiylə maraqlandım. Dilçilik kafedrasının müdiridir dedi. Sonralar hər gördükçə, o Mədəd müəlliminiz başqa nə danışır deyərdim. O da kəkələyərək öz məssəfiylə təkrarlayardı... Tanımadan, bilmədən ana dilimizin gözəlliyi ilə, axarlığıyla qələbəyə gedək deyən müəllimə çox böyük rəğbət bəsləyirdim.

Sən demə, hərbçilərə ana dilimizi təbliğ edən, terminləri milliləşdirən, əmrləri, tapşırıqları özümüzünküləşdirən bizim Borçalımızın Mədəd müəllimi imiş.

Ə.Şıxlinski burjua inqilabından sonra 1918-ci ilin fevralında seymdən xüsusi icazəylə Tiflisdə Müsəlman Hərbiyyə Məktəbi açdı, sonralar məkanı və adı dəfələrlə dəyişsə də sonda H.Əliyev adına Hərbi Elmlər İnstitutu adlandı.

Tiflisdən Bakıya qırılmış qəlbin mənəvi yüküylə getdi Mədəd müəllim. Həmişə olduğu kimi. Özümüzün özümüzə zərbəsiylə içində bir qaysaqlamayacaq yarayla. Gedərkən adı dəfələrlə dəyişsə də məqsədi, məramı bir olan həmin hərbi məktəbdə işlədi. Hərbçilərə dilimizi, zabit etikasını, mənəviyyatı aşıladı. Hərb tariximizin bu günkü hərb dili üçün özümüzü yaratdı, tələbələrə milliliyi aşıladı. Ana dilini zəif bilən gənclər üçün Mədəd müəllim bir xoş xatirə oldu. Bununla kifayətlənmədi Mədəd müəllim.

Ata-baba yurdunun 1991-dəki qara tarixi, yer adlarının sapı özümüzdən olan baltalarla kəsilməsi onu çox narahat edirdi. Çörük Qəmərlinin adı Lüksenburq, sonra Bolnisi oldu. Bir ömürdə üç dəfə dəyişdi yurdunun adı. Yazan qələmi vardı, o qələmlə bir tarix yazdı ki, unudulmasın o adlar. "Borçalı toponimləri" kitabıyla tarix yazdı. Ədəbi əlaqələr mövzusunun davamı kimi Tbilisidə "Sevirəm Gürcüstanı" adlı almanax təşkil etdi. Leyla Eradzenin tərcüməsiylə o kitab Tbilisidə üç dəfə təkrar çap olundu.



Mədəd müəllimin məqalə, oçerk, toponim yazıları və s. əsərlərinin sayı neçə yüzü keçir.

Mədəd müəllim Turançı, türkçü idi, bax, illərlə qəlbində gizlətdiyi sirri bu idi. O sirriylə Azərbaycana getdi və özünü təqdim etməyi bacardı.

Tarixə "Borçalı toponimləri"ni və Azərbaycan – Gürcüstan ədəbi əlaqələrini bağışladı. Zənnimcə, şərəfli bir ömür yaşadı – alim kimi, valideyn kimi, eloğlu kimi. Ən böyük səadəti də o oldu ki, el qəlbindən keçərək oğul çiynində getdi son mənzilə.

Sizin yeriniz həmişə görünəcək, hörmətli müəllim.

P.S. Mədəd müəllim Dədə Qorqud qəsəbə qəbiristanlığında dəfn olunub. Mənə elə gəlir, oradan Darbaza, Darbazdan da Dədə Qorquda bir həzin səs gedir, ilmə-ilmə, naxış-naxış sızıldayır:

Orada bir məzar var uzaqda, o mənim balamdır.

Orada bir el var uzaqda, o el mənim elimdir.

***Esmira Ələkbərli***
*Marneuli rayonu Qaçağan 2 saylı ictimai məktəbin kimya-biologiya müəllimi*

# GÜNÜN YAZISI



İşə gedəcəyim umusuyla evdən çıxıram. Maşınımın gəlmə vaxtıdır. Dayanacağa göz gəzdirirəm. Yoxdur. Telefonuma baxıram. Bəlkə zəng ediblər və ya mesaj yazıblar. Yeni bir şey gəlməyib. Yəqin yollar yüklü, haradasa maşın sıxlığına, tıxaca düşüb.

Günəşli bir yaz səhəri. Kanal boyu yavaş addımlarla irəliləyirəm. Onsuz da maşın həmişə bu yolla gəlir, qarşılaşarıq.

Salxım söyüdlərin saçını sular yalayır. Saman sarısı saçaqları sabahın sazağında dalğalanır. Söyüdlərin sarılığı sularda əks olunur. Suların aynasında öz gözəlliklərini görüb məmnun qalsalar da, onların utancaqlıqları, həyadan başlarını aşağı salmaları gözümdən yayınmır. Qabığına sığmayan puçurlarının pırtdayıb çıxması an məsələsi.

Maşın hələ də ortalıqda görünmür.

Qabaqda üç qaşqaldağın yol keçmək istədiyini, maşınların dayanaraq, onlara yol verdiyini məmnunluqla izləyirəm. Bəzən bu quşların qəfil maşınların yoluna çıxması onların həyatını bitirir. Bundan sonra sürücü yüz təəssüflənsin, nəyi dəyişə bilər? Onların peşmanlıqları öləni diriltmir, gedəni geri qaytarmır. Sürücülər də qınanılası deyil. Kimi gözləsinlər? Öz yolu ilə hərəkət edən velosipedlərimi, piyada keçidinə ayaq basan yayaqlarımı, arxadan həyacan siqnalı verən təcili yardım maşınınımı, yoxsa yol hərəkəti qaydalarına məhəl qoymayan dovşanları, tülküləri, növbənöv quşlarımı?

Bu heyvanlarla, quşlarla istənilən şəhərdə, günün istənilən saatında qarşılaşa bilərsiniz. Elə gəzib, dolaşırlar ki, görən deyər, bu şəhəri bunların dədələri salıblar, insanlara da onlarla birgə yaşamağa icazə veriblər. Kanallara, parklara dədəmalı kimi yiyələniblər. Niyə də özlərini bu cür aparmasınlar ki? Dəyən yox, dolaşan yox, tüklərinin ütülüb şişə taxılmaq, tavaya girmək kimi bir qorxuları da heç yerli-dibli yox. Üstəlik ac qalanda özləri tapıb yedikləri bir ayrı, insanların ayından-oyundan verdikləri də bir ayrı. Amma orasını da deyim ki, quşların bəzi məkanlarda insanlar tərəfindən yedirilməsi yasaqdır, bunu da həmin ərazidə quraşdırılmış qadağan nişanları sənə xatırladır və sən buna əməl etməlisən. Nə qədər təbiət vurğunu-filan olsan da, qanunun tələbinə əməl etməsən cərimə yeyə bilərsən. Bu da belə.

Mənim maşınım heç üfüqdə də görünmür.

Kanal boyunca hər addımbaşı dənlənən, günəşlənən yaşılbaş ördəklər gözə dəyir. Bəs bunların xanımları hara cin-bata çəkiliblər? Heç kanalda da üzmürlər? Verdiyim suala özümün də gülməyim tutur. Burada bir gülüş smailiki nə yaraşardı. Amma haradan alasan. Yəqin yaşılbaşların xanımları kürt yatırlar. Vaxtdır-vədədir. Bugün-sabah yumurtaları dəlib dünyaya gələcək ipək tüklü cücələr böyüklü-kiçikli hamının sevinc qaynağı olacaq. Yazdır. Quşların bala çıxaran vaxtı.

Maşınım gələnə oxşamır.

Oturacaqlardan birinə çöküb kanalda tək-tənha üzən ququşuna baxıram. Qu hara, təklik hara? Tayı buralarda olmalıdır. Axı bunlarınkı “getmə gözümdən, gedərəm özümdən”dir. İynə ha deyil itə. Onun tayını tapmaq məqsədiylə kanalı eninə-uzununa gözdən keçirirəm. Yaxınlıqdakı çoxmərtəbəli iş mərkəzinin ən uzağı beş-altı addımlığında, kanalın üstündən keçən körpü ilə sahilin yaratdığı düzbucağın ortasındakı pambıq ağı topanı bir göz qırpımında gözüm alır, axtardığımı tapmışdım. Ququşu da kürt yatırdı. Balaçıxarma mövsümündə qular təhlükəli olur, ötüb-keçənlərə hücum edirlər. Öz balalarını qorumaq instinkti onları belə davranmağa təhrik edir. Quları stresdən, insanları onların təhlükəsindən qorumaq üçün bələdiyyə onların yuvalarının üç tərəfini xüsusi torla çəpərləyib, quruya çıxışlarını əngəlləyir. Görünür hələ xəbərləri yoxdur və ya çəpər çəkməyin vaxtı yetişməyib.

Artıq maşının gəlməyəcəyinə əminəm.

Yaz günəşinin bədənimə işləyən ılıqlığı elə bil çiyinlərimdən aşağı basır, bütün varlığımı qəribə bir şəkildə bürüyür. Kirpiklərim ağırlaşıb qapanmaq istəyir. Elə bu məqamda kanalın nisbətən gözdən uzaq bir yerində, sahildən dörd-beş addım aralıda, çör-çöp qalağının üstündə iki qaşqaldağın səylə yuva qurduğu və ya köhnə yuvalarını sahmana salmaq üçün əl gəzdirdikləri diqqətimi cəlb edir.

Haradansa uçub gələn, alabəzəkliyi ilə klouna bənzəyən tutuquşunun zəhlətökən səsi, hara gəldi özünü dürtən, harda aş, orda baş olan, əlinə keçəni çinədanına dolduran şəvə qarası qarğaların qarıltısı mənim yerimdən qalxmamı, evin yolunu tutmamı tezləşdirir.

Maşınım da gəlib çıxmadı.

Pis-yaxşı bu yazı alınır, onu bu günün qazancı saymaq istəsəm də içimdəki narahatlıq bitmək bilmir.

**Afiq Muxtaroğlu**
*Niderland Krallığı*
*29 mart 2021-ci il*



# GÜLMƏK

Məncə, bu dünyada gülmək qədər gözəl bir şey yoxdur. Elə gülməyin özü xoşbəxtlikdir. İnsanlar sevinərkən, xoşbəxt olarkən reaksiya olaraq gülürlər. Çox gözəl deyilmi: bir insan gülürsə bizim ağlımıza pis bir şey gəlmir, xoşbəxtlikdən güldüyünü düşünürük. İnsanların xoşbəxtlikdən gülməsi çox gözəldir. Ancaq hər gülən insan xoşbəxtdirmi? Gülməkdə pis bir şey ola bilərmi? Bəzən gülmək ağlamağı əvəz edə bilərmi?

Bu dünyada təxminən səkkiz milyard insan var. Səncə, hamı xoşbəxtdirmi, hamı xoşbəxtlikdən gülə bilirmi?

Təbii ki, hər gülən insan xoşbəxt deyildir. Bəzən insanlar yaşadıqlarını üzlərindəki təbəssümlə, gülüşlərindəki qəhqəhə ilə örtməyə çalışırlar. O qədər çətin günlər yaşamış insanlar var bu dünyada, ancaq buna baxmayaraq nə qədər istəməsələr də kiməsə görə, nəyəsə görə güclü olmaq məcburiyyətindədirlər. Güclü görünmək üçün isə insanın ən güclü silahı gülməkdir. Məncə, bu, bir insan üçün ən dözülməz vəziyyətdir – xoşbəxt olmadığı halda xoşbəxt görünməyə məcbur olmaq. Gülməyin dili yoxdur. Dünyada səkkiz milyard insanın hər birinin gülüşü eynidir, ancaq kimisi həqiqətən xoşbəxtlikdən gülür, kimisi isə məcburiyyətdən.

Gülmək pis bir şey deyil. İçdən, doğrudan gülmək qədər gözəl bir şey yoxdur. Ancaq və lakin etika deyə bir şey də var. Çox səsli gülmək etik deyil, doğru başa düşülməz və s. Bu qədər boş düşüncələr, sözlər, söhbətlər... Gülməyi belə bu dünyada çox görən insanlar var. Axı bu qədər gözəl şeyi nə üçün rahat, içindən gəldiyi şəkildə etməyəsən? Doğrudur, cəmiyyət içərisində o qədər yüksək səslə gülmək yaxşı deyil, ancaq həyatda heç nə sonsuz deyildir, bir gün gələcək istəməsək də o gülüşlər belə solacaq, nə üçün gec olmadan istədiyimiz kimi doyunca gülməyək ki? Ən yaxşısı, həqiqətən xoşbəxtiksə kiminsə gülüşlərimizi məhdudlaşdırmasına icazə verməyək. Xoşbəxtlikdən gülmək gözəldir, ən yaxşısı isə ölənə qədər xoşbəxtlikdən gülməkdir, məcburiyyətdən deyil. Məncə, bu qədər gözəl bir şey heç kimi rahatsız etməmlidir, əksinə, sevindirməlidir. Kiminsə gülüşü şəxsən məni sevindirir. Elə bu neqativ sözlərə, düşüncələrə görə 32 diş deyil 56 (məcazi mənada) diş gülün.

Gülmək gözəldir deyirəm. Bəs insan hər şeyə gülərkən ağlamağın necə bir hiss olduğunu unuda bilərmi? Düzdür, kimdən soruşsanız – ağlamaqmı, gülməkmi – sözsüz ki, gülməyi seçəcək. Boş şeylərə belə güclü görünmək üçün gülərkən insan ağlamağın nə olduğunu da unudarmış. Pis olduğunda belə ağlamağı gülüşləri əvəz edərmiş. Belə düşündükdə insan özü özünə deyir: gülməyin harası pisdir ki, əksinə, çox yaxşıdır. İnsan ağlamalı vəziyyətdə belə nə qədər özü istəməsə də gülürsə, məncə, bu da xaricdən yaxşı görünsə də, daxildə özünün içini yeyən bir növ xəstəlikdir.

Victor Hüqonun belə bir sözü var: “Ağlamaq üçün gözdən yaşmı axmalıdır? Dodaqlar gülərkən insan ağlaya bilməzmi?” Yəni, bir sözlə, hər gülən insan xoşbəxt deyildir.

Bu dünyada gülməyin nə olduğunu unudan insanlar var. Gülməyi unudan insanlara üz tuturam. Gülümsəmək üçün tələsin. Çünki həyat davam etmə müddəti bəlli olmayan bir filmdir, sonu bəlli deyil. Amma bu sonu gülümsəyərək etmək, fikrimcə, ən böyük qalibiyyətdir.

Həyatınız hüzurla dolsun, sizi güldürən insanları sevin, onlarla birlikdə olun. Ən əsası da, əgər bacara bilirsinizsə ölərkən belə gülün. Mən ölərkən gülmək istəyirəm, ağlamaq deyil.

**Alina Fətullayeva**
*Qardabani 3 saylı ictimai məktəbin məzunu*

# "KOROĞLU"NUN ƏXLAQİ-ESTETİK ƏQİDƏSİ

**Elizbar CAVELİDZE**

*(əvvəli ötən sayda)*

**On beşinci boy.** Bu dastanda Koroğlunun hələ cavanlıq günləri verilib. O, Dəli Həsənlə birgə Çənlibeldə yurd salmışdı. Günlərin birində Koroğlu dəlilərinin başına gələnləri dinləyirdi və Dəmirqapı Dərbənddən olan dəli Ərəb paşanın qızı Möminə xanımı tərif etməyə başladı, tərif nə tərif. Bu tərif, mədhiyyə sayəsində Koroğlu görməzə-bilməzə Möminə xanıma vuruldu və onun könlünü ovlamaq üçün Dərbəndə yola düşdü. Yad, boy-buxunlu igid şəhəri təşvişə saldı.

Ərəb paşa bu yad insanı yanına çağırtdırdı və soruşdu: "Kimsən, buraya nə üçün gəlibsən?"

Koroğlu sazı sinəsinə basıb fikrini şeirlə dedi. Aşıq olduğunu bildirdi, lakin paşa dedi ki, bir məni əməlli-başlı başa sal, görüm nə istəyirsən? Koroğlu yenə sazı basdı sinəsinə. İzah etdi ki, özünə bir zənan istəyir, ortalığa heç salmaya acılıq, ər məhəbbətində ola mötəbər, gərgədan bədənli, ağ maya dilbər, mərd meydanda bir igidə bərabər, doğduğu hünərli bir oğlan ola *(Bax: "Koroğlu", səh. 598).*

Ərəb paşa mətləbi anladı. Vəziri, vəkili yığdı, məsləhət elədi və Möminə xanımı Koroğluya verdi. Evləndilər, Koroğlu qırx gün orada qaldı. Sonra Koroğlu ondan Çənlibelə getməyini xahiş etdi. Mən atamın torpağından çıxıb heç yerə getmərəm dedi. Koroğlu hər nə qədər elədisə, Möminə xanım yox dedi. Onda Koroğlu gedərkən bazubəndini açıb ona verdi və dedi: "Əgər qızım oldu, satıb xərclik edərsən, oğlum oldu, bağlayarsan qoluna, gəlib məni tapar". Bunu deyib Koroğlu yollandı.

Möminə xanımın, necə deyərlər, düz doqquz ay, doqquz gün, doqquz saatdan sonra bir oğlu oldu. Adını Həsən qoydular. Uşaq elə bil ki, ayla, illə deyil, saatla, dəqiqə ilə böyüyürdü. Babası Ərəb paşa əvvəlcə onu pəhləvanlara və sərkərdələrə tapşırdı. Ona at minmək, ox atmaq, qılınc vurmaq, küştü tutmaq elmini öyrətməyə başladılar. Amma uşaq bir növ yaman nadinc idi, dilbilməz, inadkar idi. Buna görə də babası Həsənin adını Qurdoğlu qoymuşdu. Elə hamı da onu bu adla çağırırdı.

Oğlan böyüdü və bir dəfə keçəl oğlanla sözləşdi. O kinayə ilə ona dedi: "Mən sənə nə eləmişəm, məni vurursan, ay atasından bixəbər!" Alovlanmış Qurdoğlu birbaş gəldi anasının üstünə. "De görüm" – dedi, – "mənim atam kimdir?" Möminə xanım əvvəlcə onun atasının kim olduğunu gizlətdi, lakin, nəhayət, oğlu əl çəkməyəndə, açıb ona dedi: "Sənin atan var. Özü də xanlara, paşalara qan udduran Çənlibelli qoç Koroğludur".

Oğlan qəti şəkildə atasını görmək qərarına gəldi. Nə anası, nə də babası onu bu fikirdən döndərə bildilər. Axırda razılaşdılar, xəzinədən pul götürdü, ilxıdan da bir boz day seçdi. Sonra dəmirçinin yanına gəldi və yaxşı qılınc qayırmasını tələb etdi. Dəmirçi hazır qılıncları ona uzatdı, lakin o, hamısını qırdı. Axırda usta xüsusi qılınc qayırmağa məcbur oldu. Yola düşməmişdən öncə anasının yanına gəldi ki, onunla xudafizləşə. Ana-oğul arasında qarşılıqlı təskinlik vermə baş verir ki, bu da ana-oğul məhəbbətinin səmimi ürək süzüntüləridir.

Söz tamam oldu, Möminə xanım Koroğlunun bazubəndini çıxarıb onun qoluna taxdı. Qurdoğlu üç gün, üç gecə at sürərək kürdüstanlı Əhməd bəyin vilayətinə çıxdı. Kəndin aşağı tərəfi ilə at sürən Qurdoğlunun gözünə bulaqdan su dolduran gözəl bir qız sataşdı. Qızın gözləri də elə Qurdoğlunun gözlərinə sataşdı. Elə bil ki, Qurdoğlunu ildırım vurdu. Burada Qurdoğlu ilə Əhməd xanın qızı Mehri xanım arasında deyişmə baş verir. Qız ona yalvarır ki, çıxıb getsin buralardan, məndən sənə yar olmaz. Oğlan isə cavab verir: "Gəlmişəm, aparam səni". Deyişmə bitəndən sonra qız yola düzəldi. Qurdoğlu da onun dalınca düşdü.

Qurdoğlu Əhməd xanı görmək istədi. Xan razılaşdı. O, xanın qızını istədiyini bildirəndə xan onun xahişini rədd edir. Qurdoğlu öz dediyindən dönmür, hələ bir hədə-qorxuya da keçir. Nəhayət, Çənlibelə getdiyini bildirəndə, Əhməd xan şübhələndi. Fikirləşdi, bu həqiqətən Koroğlunun dəlilərindəndir və göz elədi ki, onu tutsunlar. Amansız döyüş başladı. Qurdoğlu onun üstünə düşənlərin hamısını şil-küt elədi. Onun üstünə qoşun yeridi. Qoşunu qatım-qatım qatladı. Qoşun başladı geri çəkilməyə.

İndi Mehri xanım atasının yanına gedib dedi: "Bu çənlibelli qoç Koroğlunun oğludur. Onu tutub öldürsək, atasına nə cavab verərik?"

Əhmət xan fikrə getdi. Özününkülər ilə tədbir edəndən sonra razılaşdı və toy edib qızı Mehri xanımı Qurdoğluna verdi. Bu izdivacla, qohumluqla o, öz adının şöhrətlənməsini düşünürdü.

Qurdoğlu evləndi, sonra atasını axtarmaq üçün Çənlibelə tərəf yola düşdü. O, ora çatanda bir neçə dəlini məğlub etdi, yerə vurdu, əllərini, ayaqlarını bağladı. Bütün bunları Koroğluya çatdırdılar. Koroğlu Qurdoğlunun yanına gəldi, ondan kim olduğunu və haradan gəldiyini soruşdu. Qurdoğlu ona cavab verdi ki, hələ sən de görüm kimsən, adın nədir? Əgər dəlilərini azad etmək istəyirsənsə, mən bağlamışam, sən özün onların əllərini aç.

Sonra hər ikisi bir-birilə vuruşmağa başladı. Qılıncdan heç nə hasil olmadı, vuruşa keçdilər. Bir-birinə hər fənd-fel gəldilər. Lakin bir nəticə vermədi. Axırda hər ikisi yoruldu. Çəkilib hərəsi bir tərəfdə oturdu. Yorğunluqlarını alıb yenə yapışdılar. Qurdoğlu bir güc verib Koroğlunun dizlərini yerə gətirdi, basıb altına, çökdü sinəsinə, yuxarıdan dedi: "İgid, adını de, kimsən?"

Koroğlu isə cavab verdi: "Adımı neynirsən? Basmısan kəs!"

Qurdoğlu durub dedi: "Yox, adını deməsən, səni öldürmərəm".

Sonra onlar arasında deyişmə baş verdi. Nəhayət, Qurdoğlu ona deyir ki, mənim qorxaqlarla işim yoxdur, götür, dəlilərini də sənə bağışladım, aç əllərini, apar. Lakin o rahatlıq tapmır. Atalar üçdən deyiblər. Bunu deyib Qurdoğlunun qurşağından yapışır. Bu dəfə də Qurdoğlu Koroğlunu yıxır. Yenə də öldürməyə əli gəlmir. Durdu, dedi, igid bəsdi. Koroğlu dedi ki, yox, bir də yapışacağıq. Qurdoğlu Koroğluya deyir: "İgid, bu dəfə basdım, kəsəcəyəm".

Bu ərəfədə Nigar xanım və dəlilər özlərini yetirdilər. İkisi də şirə, pələngə dönüb bir-birini eşirdilər. Nigar xanım nə qədər elədisə, onları ayıra bilmədi. Koroğlu bir nərə çəkdi, Qurdoğlunu yerə vurdu. Çöküb sinəsinə xəncəri çəkdi ki, başını kəssin, Nigar xanım tutub xəncəri onun əlindən aldı. O dedi: "O səni iki dəfə yıxdı, kəsmədi. Sən onu bir dəfə yıxıb kəsirsən? Heç bu namərdlik Koroğluya yaraşarmı?"

Qurdoğlu bildi ki, bu Koroğludur. Özünü saxlaya bilmədi, qoşma söylədi: "Qurdoğluyam, Koroğlunun oğluyam" dedi. Bu bəyanat hamını heyrətləndirdi. Koroğlu dedi: "Mənim oğlum yoxdur, sən yalan deyirsən". Qurdoğlu cavabında dedi: "Var, mən Ərəb paşanın qızı Möminə xanımın oğluyam. Bu da sənin bazubəndin". Koroğlunun dəli könlü coşdu. Oğlunu qucaqlayıb dedi:

**"Başına mən dönüm, gülüzlü oğul,**
**Koroğlu deyilən igid mənəm, mən!**
**Dəli paşaları taxtından salan,**
**Koroğlu deyilən igid mənəm, mən!"**

Sonda Çənlibeldə bir şənlik oldu, bir kef oldu ki, hələ tarixdə belə şey yazılmayıb. Axırda Qurdoğlu Koroğludan rüsxət alıb Mehri xanımı gətirmək üçün Əhməd xanın yanına döndü.

Qısası, bu dastanda Qurdoğlunun gənclik çağları və Koroğlunun Möminə xanımı alması nəql edilir. Lakin Koroğlunun ürəyi Çənlibelə doğru idi. Möminə xanım isə heç bir vəchlə öz doğma diyarını tərk etmədi ki, bu da onların ayrılmasına səbəb oldu. Halbuki səmimi məhəbbətindən oğlan dünyaya gəldi, bu da genetikasına, xarakterinə və təbiətinə görə atasına bənzəyir. O, qüvvə və doyüş sənətinə görə atasından nəinki geri qalmır, hətta ondan üstündür ki, bu da onların güləşməsi zamanı aydın olur.

Bundan başqa, bu boyda Qurdoğlu ilə Mehri xanımın məhəbbəti və bir-birilərinə aşiq olmaları nəql edilir. Diqqətə layiqdir ki, Mehri xanım eposun başqa qadınları kimi gözəlliyi ilə, ağlı-kamalı ilə seçilir.

Oğlu tərəfindən məğlub olan, qalibin onun öldürmək niyyətində olduğu Koroğlu heç cürə adını demir ki, bu da onun təbiət-xarakterinin cizgilərindən biridir.

Bu dastanda Nigar xanımın nüfuzu, dərrakəsi və bəsirəti bir daha özünü büruzə verir: ata ilə oğul arasında faciəvi sonluq, məhz elə Nigar xanımın ədalətliliyi sayəsində şənliyə və xoşbəxtliyə çevrildi.

Başlıcası hər halda odur ki, aslanın balası aslan olar kimi səslənən qədim oğuz müdrikliyi bu dastanda ata-oğul arasında savaşla və sonda məhəbbətlə bir daha təsdiqlənir.

**On altıncı boy.** Bu dastanın süjeti belə başlayır: Təşvişə düşmüş Koroğlunun qələbəsi ilə və atasından artıq olmasa da əksik olmayan oğlunun üzə çıxması ilə. Xotkar Hasan paşanı təcili yanına çağırtdırır və hədələyir, qırx gün ərzində ya Koroğlunun başını gətirirsən, ya da səni dar ağacından asdıracağam.

Hasan paşa vurnuxmağa və hücum üçün hazırlaşmağa başladı. Aşıq Cünun bütün hər şeyi yerli-yataqlı öyrəndi və ətraflı Koroğluya danışdı.

Dəlilər də Çənlibelin Toqat baxarındakı bəndləri tutdu. Başladılar Hasan paşanı gözləməyə. Lakin xeyli vaxt keçdi, Hasan paşadan bir xəbər çıxmadı.

Halbuki axırda Ələmqulu xanın elçisi kimi özünü təqdim edən bir nəfər üzərə çıxdı. Xəbər verdi ki, Ələmqulu xan öz başının adamları ilə sənə qonaq gəlir. Qonağı qəbul etmək üçün hazırlığa başladılar. Lakin axırda məlum oldu ki, elçi deyil, Hasan paşanın göndərdiyi çuğul imiş.

Koroğluya məlumat verdilər ki, göndərilmiş Dəli Həsən və onun dəliləri getdikləri yerdə yoxdur, heç yerdə görünmürlər. Koroğlunun gözləri qan çanağına döndü. Sanki yatmışdı, oyandı. Dəliləri müvafiq yerlərə yerləşdirdi. Xanımlar da silahlandılar və Eyvazın dəstəsinə qoşuldular. Koroğlu isə dəlilərin müşaiyəti ilə bulağın yanına getdi ki, burada da guya Ələmqulu xanı gözləyirdilər. Həqiqətdə isə Hasan paşa pusquda dururdu. Koroğlu çatan kimi orada olanlara salam verdi: "Bəs, hanı xan?" Dərhal Hasan paşa qabağa yeriyib dedi: "Koroğlu, xan yoxdur, gələn paşadı". Onlar arasında kəskin söhbət oldu. Hasan paşa Koroğluya məsləhət görür ki, cavanlıq idi, indiyədək nə etdin etdin. İndi isə birbaşa mənimlə gedək İstanbula, qurtarsın getsin. Koroğlu dedi: "Siz elə bilməyin ki, mən sizin işlərinizi bilmirəm. Xotkar səni bura niyə göndərib, sən buraya necə gəlmisən. Hamısı mənə bəllidir. Əlim-ayağım dəyməmiş qoşununu da götür, çıx buradan get! Yoxsa..." Nəhayət, atın belinə minən Koroğlu öz dəlilərinə qoşma ilə müraciət etdi. Koroğlu və dəlilər qılınclarını siyirdilər və qoşunun üstünə töküldülər. Koroğlu savaş zamanı da aşıqlığından əl çəkmir, qoşmalar deyir.

Bu ərəfədə Dəli Həsən də üç min qoşunla Hasan paşanın qoşununun üstünə düşdü. Savaş qızışdı. Savaş, nə savaş. Axırda paşanın qoşunu məğlub edildi və təslim oldu. Dünya xanım atasının durumunu görəndə örpəyini açıb Koroğlunun ayaqları altına atmaq istədi ki, Koroğlu Hasan paşanı bağışlasın. Koroğlu qoymadı. Qolundan tutub qaldırdı. Öz əli ilə örpəyi onun başına salıb dedi: "Mən onu öldürməyəcəyəm. Mənim onunla ayrı işim var". Və sonra üzünü Hasan paşaya tutdu: "Sən mənim yolumda bir qızın Dona xanımı Keçəl Həmzəyə verdin. Bir qızın Dünya xanımı da Bolu bəyə vermək istəyirdin. Bir qızın var Bulğar xanım adında. Onu da gərək Dəli Həsənə verəsən. Bura çağır, bəyənər gedər, bəyənməz, yenə sənin qızındır. Bu mənim birinci şərtim. İkinci şərtim oldur ki, Qırat və Dürata görə atamın gözlərini çıxartdırdın. Səni öldürməyəcəyəm, nə qədər ki, ömrün var, Çənlibeldə qalıb bu iki ata mehtər olacaqsan". Bir neçə gündən sonra Bulğar xanım da Çənlibelə gəldi. Koroğlu onu Dəli Həsənə verib toyunu etdi. Hasan paşa da ömrünün axırına kimi Çənlibeldə qalıb Qıratla Dürata mehtərlik elədi.

Təhlil olunan boyda Hasan paşanın haramzadalığı və oyunbazlığı elə aydın şəkildə təsvir olunur ki, onun ziddiyyət fonunu da Koroğlunun alicənablığı, igidliyi və savaş aparmaq sənəti yaradır. Elə burada qeyd etmək lazımdır ki, Koroğlu döyüşdən öncə və döyüş zamanı da ruh yüksəkliyi və mətinliyi möhkəmləndirmək üçün nə sazı unudur, nə də aşıq sənətini. Bir cizgi də nəzərə çarpandır – Çənlinelin xanımları çətin durumda özləri silahlanırlar və döyüşdə iştirak etməyə hazırdırlar. Müəyyən olunur ki, qadın igidlərinin savaşa qatılması və döyüş sənəti, məharəti və istedadı elə başdan oğuz, elə götürək, azərbaycanlı xanımlarını xarakterizə edir. Eləcə də Koroğlunun qadınlara qarşı dərin ehtiramını və hörmətini unutmamalıyıq. Bu, onun Dünya xanıma qarşı necə sıxıla-sıxıla yanaşdığı zaman aydınca görünür.

Doğrudur, Koroğlu alicənabdır və Hasan paşanı öldürmür. Lakin Qırat və Düratın üzündən atasının gözünü çıxartdırdığı üçün ömürlük atların mehtəri edir. Düşünürəm ki, bu, şöhrətpərəst paşa üçün ölüm cəzasından da betərdir.

*(davamı gələn sayda)*

Gürcü dilindən tərcümə edən:
**Mirzə MƏMMƏDOĞLU**

İCTİMAİ QƏZET ❀ yeniyolqazeti@gmail.com ❀ “იენი იოლი” საზოგადოებრივი გაზეთი ❀ HAQQIN SÖZÜ – SÖZÜN HAQQI

31 İYUL 2023-CÜ İL № 014 (185)

# Yeni YOL

Qəzet 17 iyun 2015-ci il tarixindən nəşr olunur.

## TBİLİSİDƏ MƏDƏD ÇOBANOVUN XATİRƏSİNƏ HƏSR OLUNMUŞ TƏDBİR KEÇİRİLİB



İyulun 23-də Tbilisidəki M.F.Axundzadə adına Azərbaycan Mədəniyyəti Muzeyində azərbaycanlı türkoloq alim, Nyu-York Elmlər Akademiyasının üzvü, filologiya elmləri doktoru, Prezident təqaüdçüsü Mədəd Çobanovun xatirəsinə həsr olunmuş mərasim keçirilib. Əvvəlcə alimin xatirəsi anılıb, ruhuna dualar oxunub.

Gürcüstan Azərbaycanlıları Konqresinin (GAK) təşkilatçılığı və "qafqazturk.com" portalının informasiya dəstəyi ilə keçirilən tədbirdə Azərbaycandan və Gürcüstanın bölgələrindən gəlmiş elm, mədəniyyət xadimləri, M.Çobanovun ailə üzvləri, dostları və ictimaiyyət nümayəndələri iştirak ediblər.

Muzeyin direktoru, Azərbaycanın Əməkdar mədəniyyət işçisi Leyla Əliyeva tədbiri açaraq, M.Çobnovun həyat və yaradıcılığı barədə məlumat verib.

Sonra GAK sədri Hüseyn Yusubov çıxış edərək bildirib ki, M.Çobanov Azərbaycanda çalışıb, Gürcüstan Azərbaycanlıları Konqresinin üzvü və əsil vətənpərvər olub. Azərbaycan dilinin, ədəbiyyatının, mənəviyyatının özəlliklərinin qorunub saxlanılması, inkişafı alimin yaradıcılığının əsas xəttini təşkil edib.

Azərbaycanın Gürcüstandakı səfirliyinin müşaviri Eldar Bayramov M.Çobanov barədə fikirlərini bölüşüb, alimin anım mərsiminin təşkilinə görə GAK rəhbərliyinə minnətdarlıq edib. Səfirliyin hər zaman soydaşların yanında olduğunu diqqətə çatdırıb.

Bolnisi rayonunun Arif Əliyev adına Faxralı kənd 1 nömrəli orta məktəbin Azərbaycan dili və ədəbiyyatı müəllimi, "qafqazturk.com" portalının əməkdaşı Fatma Əliyeva məruzə ilə çıxış edib. Bildirib ki, professor Mədəd Çobanov Azərbaycan dilçilik elminə xeyli yeniliklər gətirib.

O, Gürcüstan əsilli alimlərin, ziyalıların Azərbaycan və dünya elminə, ədəbiyyatına, mədəniyyətinə verdikləri töhfələrdən danışıb. Bu alimlər içərisində M.Çobanovun xüsusi yeri və mövqeyi olduğunu diqqətə çatdırıb.

M.Çobanovun tələbə yoldaşı yazıçı-publisist Əli Abbas, alimin tələbəsi, Gürcüstanın Dini Məsələlər üzrə Dövlət Agentliyinin Kvemo Kartlidəki nümayəndəsi, "Təhsil" qəzetinin təsisçisi Abay Paşayev, Heydər Əliyev adına Azərbaycan Hərbi Məktəbində M.Çobanovla bərabər çalışmış şair Nizami Saraçlı alim haqqında xatirələrini bölüşüblər.

Sonra iqtisadiyyat üzrə fəlsəfə doktoru Aygül İsayeva, Azərbaycan dili və ədəbiyyatı müəllimi Növrəstə Həsənova, GAK-ın Qardabani təmsilçisi Lətif Əhmədov, Bolnisi – Kəpənəkçi təmsilçisi Çingizxan Yaqubov, "Gürcüstan" qəzetinin xüsusi müxbiri, şair Bəhram Mehdi və başqaları çıxış edib, alimin həyat və yaradıcılığının müxtəlif sahələrinə dair fikirlərini bölüşüblər.

Tədbirdə şair Səadət Buta M.Çobanova həsr etdiyi şeirini söyləyib.

M.Çobanovun qızı Təranə Çobanova və kürəkəni Vaqif Bayramov çıxış edərək tədbirin təşkilatçılarına minnətdarlıq ediblər.

## DÜNYA BANKI QARA DƏNİZİN DİBİNİN TƏDQİQİ ÜÇÜN GÜRCÜSTANA ƏLAVƏ 75 MİLYON DOLLAR AYIRACAQ

Ötən ilin dekabrında Azərbaycan, Gürcüstan, Rumıniya və Macarıstan hökumətləri arasında Gürcüstan və Azərbaycandan elektrik enerjisini Avropaya çatdıracaq kabelin çəkilməsi çox mühüm əhəmiyyət kəsb edən bir layihədir. Bu fikir Gürcüstanın iqtisadiyyat və davamlı inkişaf nazirinin müavini Gennadi Arveladze ilə Dünya Bankının regional direktoru Koen Devids arasında keçirilən görüşdə səsləndirilib.

Görüşdə Qara dəniz kabeli ilə bağlı tədqiqatların davam etdirildiyi vurğulanıb və bu layihənin Gürcüstanın enerji gələcəyi üçün böyük əhəmiyyət kəsb etdiyi qeyd olunub.

Bildirilib ki, Qara dəniz ilə sualtı kabel layihəsinin texniki-iqtisadi əsaslandırılmasını Gürcüstanın Dövlət Elektrik Sistemi "CESI Consulting" şirkətinin köməyi ilə həyata keçirir. Gələcəkdə ətraf mühitə və sosial vəziyyətə təsirin qiymətləndirilməsi, həmçinin Qara dənizin dibinin geofiziki və geotexniki tədqiqatları aparılacaq.

Müzakirələr zamanı layihənin Avropa və Qafqaz regionunda enerji təhlükəsizliyini gücləndirmək, bərpa olunan enerji sektorunu inkişaf etdirmək və tranzit imkanlarını artırmaq məqsədi daşıdığı vurğulanıb.

Bildirilib ki, Avropa İttifaqı Qara dəniz üzərindən sualtı kabel layihəsinə 2,3 milyard avro ayırmaq niyyətindədir. Dünya Bankı Qara dənizin dibinin ətraflı tədqiqi üçün Gürcüstana əlavə 75 milyon dollar ayıracağına söz verib.

Həyata keçiriləcəyi təqdirdə, 1195 km uzunluğunda kabel (1100 km sualtı və 95 km quru) Gürcüstanı Şərqi Balkanlara birləşdirəcək və Cənubi Qafqaz və Avropaya genişlənmiş ixrac imkanlarından yararlanmağa və saatlıq elektrik enerjisi bazarı qiymətləri ilə elektrik enerjisini idxal etməyə imkan verəcək.

## GÜRCÜSTANDA QİÇS XƏSTƏLİYİNƏ YOLUXANLARIN SAYI ARTIB



Gürcüstanda QİÇS xəstəliyinə yoluxanların sayı artıb.

Bu barədə Gürcüstan Milli Statistika İdarəsinin 2022-ci ilə dair səhiyyə göstəriciləri hesabatında bildirilib.

Qeyd olunub ki, 2022-ci il ərzində ölkədə QİÇS xəstəliyinə 617 yoluxma halı təsdiqlənib ki, bu da 2021-ci illə müqayisədə 164 % çoxdur.

Statistikaya əsasən, Gürcüstanda QİÇS xəstəliyi daşıyıcılarının ümumi sayı 9779 nəfərdir. 2022-ci ildə Gürcüstanda QİÇS-dən ümumilikdə 140 ölüm halı qeydə alınıb.

## SENAT ABŞ-IN GÜRCÜSTANDAKI YENİ SƏFİRİNİ TƏSDİQLƏYİB



Amerika Senatı Robin Danniqanı ABŞ-ın Gürcüstana yeni səfiri vəzifəsinə təsdiqləyib.

Bu barədə məlumat Senatın tvitter hesabında dərc edilib.

"Təsdiqləndi: Robin Danniqan Gürcüstan səfiri olacaq. Səsvermə ilə", – deyə məlumatda qeyd edilib.

Xatırladaq ki, ABŞ Prezidenti Co Bayden bu il fevralın 13-də Robin Danniqanın ABŞ-ın Gürcüstandakı səfiri vəzifəsinə namizədliyini irəli sürüb.

## GÜRCÜSTANIN TRANZİT YÜK MAŞINLARINDAN ƏLDƏ ETDİYİ GƏLİR 2 DƏFƏDƏN ÇOX ARTIB



Gürcüstan bu ilin yanvar-iyun ayları ərzində tranzit yük maşınlarından 86,7 milyon lari gəlir əldə edib. Bu barədə Gürcüstan Maliyyə Nazirliyinin Gəlirlər Xidmətinin məlumatında bildirilib.

Qeyd olunub ki, bu, ötən ilin analoji dövrü ilə müqayisədə 2,05 dəfə çoxdur. Belə ki, ötən ilin birinci yarısında Gürcüstan tranzit yük maşınlarından 41,9 milyon lari əldə edib.

Cari ilin birinci yarısında Gürcüstandan ümumilikdə 247 753 yük maşınının dəhliz kimi istifadə etdiyi qeyd olunub.

## GÜRCÜSTANDA MƏNZİLLƏR BAHALAŞIB

Gürcüstan Milli Statistika İdarəsinin hesabatına əsasən, Gürcüstanda yaşayış evləri 2023-cü ilin ikinci rübündə illik müqayisədə 13 % bahalaşıb.

Qeyd olunub ki, bu ilin aprel-iyun ayları ərzində mənzil qiymətləri 2020-ci ilin ortalaması ilə müqayisədə 28,8 %, həyət evlərinin qiyməti isə 29,2 % artıb. Bahalaşma cari ilin birinci rübü ilə müqayisədə də qeydə alınıb. Belə ki, aprel-iyun aylarında mənzil qiymətləri birinci rüblə müqayisədə 34 %, həyət evlərinin qiymətləri isə 1,6 % artıb.

Statistikaya görə, hazırda paytaxt Tbilisinin Mtatsminda, Vake kimi mərkəzi rayonlarında mənzillərin qiyməti hər bir kvadratmetrə görə orta hesabla 4400-5100 lari, ətraf rayonlarda isə 2700-2900 lari təşkil edir.

Qeyd edək ki, kirayə mənzil bazarında da kəskin qiymət artımı (bəzi hallarda 2 dəfədən çox) müşahidə edilir.

Təsisçi:
"Gürcüstan Gənclərinə Yardım və Maarifləndirmə Təşkilatı"

Redaktor: Azər MUSAOĞLU
Yayım direktoru: Hacı BƏKİROĞLU
Qrafik dizayn: Elsevər ƏHMƏDOV

ÜNVAN: Rustavi şəh., Şartava küç. 12 b
TEL: (+995) 555 96 18 68
599 54 12 92
İMEYL: yeniyolqazeti@gmail.com

Yazılar yalnız elektron variantda qəbul edilir və onlara rəy verilmir. Müəlliflə redaksiyanın mövqeyi müxtəlif ola bilər. Qəzet hələlik ictimai əsaslarla yayımlanır və pulsuz paylanır. Qəzetdə müxtəlif informasiya agentliklərinin xəbərlərindən də istifadə olunur.